F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Kino tariximizdə yeni səhifələr yazan Eldar Quliyev

**Azərbaycan kinorejissoru, ssenaristi, Azərbaycan SSR xalq artisti, Azərbaycan SSR Dövlət mükafatı laureatı Eldar Quliyevin 85 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Kino tariximizdə yeni səhifələr yazan Eldar Quliyev** - Azərbaycan kinorejissoru, ssenaristi, Azərbaycan SSR xalq artisti, Azərbaycan SSR Dövlət mükafatı laureatı Eldar Quliyevin 85 illiyi münasibətilə kütləvi oxucular - üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026 – 16 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Həyat və yaradıcılığı

*“Vətənini sevən, vətən mənim üçün nə edib deməz, mən vətən üçün nə etmişəm deyər. Mən Azərbaycanlıyam. Bu vətənə borcluyam...”.*

Eldar Quliyev

Azərbaycan kinosunun inkişafına bilik və bacarığı ilə dəstək olan, quruluş verdiyi müxtəlif janrlı ekran əsərləri ilə kino sənətimizə uğur gətirən rejissorlarımızdan biri də respublikanın Xalq artisti, Dövlət mükafatı laureatı Eldar Quliyevdir. Yanvarın 18-də görkəmli kino xadiminin 85 yaşı tamam olur.

Fərdi təfəkkürünü, dünyagörüşünü, yaddaşının izini kinoda əks etdirən, mürəkkəb münasibətlərə, qəliz həyat hekayələrinə məntiqli münasibət bildirən, insanları narahat edən müxtəlif səpkili problemləri, görmək istədiyi həyat tablolarını kino sənətində canlandıran realist sənətkar Eldar Quliyevin yaradıcılıq palitrası çox zəngindir. İnsan psixologiyasını, mənəvi aləmini yaradıcılığının qayəsinə çevirən, filmlərində təhlil edən istedadlı rejissor 1966-cı ildə Moskva Dövlət Kinematoqrafiya İnstitutundan məzun olduqdan sonra böyük yaradıcılıq eşqi ilə doğma Bakıya üz tutur, istedadını Azərbaycan kinosuna həsr edir. Ömrünün 50 ildən çoxunu çətin, məsuliyyətli peşəyə sərf edən kinorejissor ilk qısametrajlı (“Biri vardı, biri yoxdu”) filmi ilə həmkarlarının və kinosevərlərin diqqətini çəkir. “Azərbaycanfilm” kinostudiyasında 20-yə yaxın bədii (“Bir cənub şəhərində”, “Vacib müsahibə”, “Var olun, qızlar…”, “Səmt küləyi”, “Ürək…ürək…”, “Sevinc buxtası”, “Babək”, “Nizami”, “Gümüşgöl əfsanəsi”, “Burulğan”, “Nə gözəldir bu dünya”, “Girov”, “İstanbul reysi” və s.), bir tammetrajlı musiqili (“Abşeron ritmləri”), bir neçə sənədli filmə quruluş verən rejissor, həmçinin bir neçə bədii və sənədli filmin ssenari müəllifidir.Teatrdan fərqli olaraq (zaman və çoxplanlı məkan baxımından) kino rejissora üslub zənginliyini nümayiş etdirməsi üçün geniş imkanlar verir. Eldar Quliyev də bu imkanlardan bacarıqla istifadə edib. Müxtəlif janrlı (lirik-psixoloji, tarixi-bioqrafik və s.) ekran əsərləri ilə Azərbaycan mikroaləmini, adət-ənənələrini, müxtəlif dövr insanlarının sosial, psixoloji durumunu məzmunlu filmləri vasitəsilə tamaşaçılara çatdırıb. Yuxarıda adları çəkilən filmlərdən də göründüyü kimi rejissoru əsasən insan mənəviyyatı, daxili aləmi, yaşadığı mühitə müdaxiləsi, yanaşma tərzi narahat edib. Eldar müəllimin kino fəaliyyətini (filmlərin uğuru və aktyorların məşhurlaşması baxımından) yaradıcı kollektiv (çəkiliş qrupu) üçün məktəb hesab etmək olar. Ekran kompozisiyasının bütövlüyünü təmin edən, filmin epizodlarının mahiyyətini, ideyasını, məqsədini aktyora dəqiq çatdıran rejissorun bununla kinonu həyatiləşdirdiyini, tamaşaçını hər hansı bir dövrün müasirinə çevirdiyini görürük. ”Bir cənub şəhərində”, “Sevinc buxtası”, “Babək” və “Nizami” kimi parlaq ekran əsərləri, eləcə də çox sayda digər bədii və sənədli filmlər Eldar Quliyevin adı ilə bağlıdır. Onun çəkdiyi ekran əsərləri

dünən olduğu kimi bu gün də sevilə-sevilə baxılır. Sözsüz ki, bütün zamanlarda da belə olacaq.

Kinorejissor Eldar Quliyev. Bu ad hamımıza yaxşı tanışdır. Bu adın arxasında azərbaycançılığı tərənnüm edən neçə-neçə film durur. O, milli kinomuzun salnamə tarixinə öz adını qızıl hərflərlə yazdıran sənətkarlarımızdandır. Eldar Quliyev Tofiq Quliyev kimi görkəmli bəstəkarın ailəsində dünyaya göz açıb. Tofiq Quliyevin mahnıları dünyanın hansı bölgəsində səslənir-səslənsin, mütləq oradan Azərbaycan ətri gəlir. Eldar müəllimin filmlərində də bu doğma hisslər aşkar hiss olunur...

Eldar Quliyev Azərbaycan kino sənətində yeni bir mərhələnin təməlini qoyub. Haqqında danışacağımız şəxs özünü "Bir cənub şəhərində" filmi ilə təsdiqləyib. Yaxşı kino təkcə istedad, bu işə sevgi və sədaqət tələb etməklə bitmir. Bunun üçün həm də çox böyük iş qabiliyyəti, fədakarlıq lazımdır. Eldar Quliyevin həm öz ölkəsində, həm də onun hüdudlarından uzaqlarda qazandığı uğur və şöhrətin təməlini məhz bu keyfiyyətlər təşkil edir.

Yeniyetmə yaşlarında heç ağlına da gətirməzdi ki, həyatını kino ilə bağlayacaq. Məktəbdə fizika fənni ilə çox maraqlanır, Moskva Fizika-Texnika İnstitutuna daxil olmağa hazırlaşırdı. Lakin qəflətən bütün planları dəyişir. O vaxt kinoteatrlarda Mixail Kalatozovun sensasiyaya çevrilmiş "Durnalar uçur" filmi nümayiş etdirilirdi. Bu filmə dəfələrlə baxmış, qəti qərara gəlmişdi ki, "Rejissor olacağam, kino çəkəcəyəm!.

E.Quliyev "Gümüşgöl əfsanəsi" (film,1984), "Burulğan" (film,1986), "Təxribat" (film,1990), "Dostuma məktub" (film,1992), "Elegiya" (film,1997), "Nə gözəldir bu dünya..." (film,1999), "Girov" (film,2005) və.s filmlərlə Azərbaycan kinomatoqrafiyasına töhfələr verib. Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli kinorejissor Eldar Quliyevin anadan olmasının 85 illiyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında rejissorun həyat və yaradıcılığından bəhs edən fotosərgi təşkil olunur.






Sərgi qarşısında kitabxanaçı çıxış edərək bildirib ki, Eldar Quliyevin yaradıcılığı təkcə Azərbaycanda deyil, beynəlxalq mühitdə də yüksək dəyərləndirilib. Onun filmləri haqqında zamanında nüfuzlu kinoşünasların və sənət adamlarının söylədiyi

fikirlər bu gün də səslənir. Bu fikirlər rejissorun sənətdəki çəkisini, həm də yaradıcılığının təsir gücünü bir daha təsdiqləyir. Daha sonra sərgi qarşısında bir çox tanınmış kinorejissorlar, sənət adamları Eldar Quliyevlə bağlı xatirələrini bölüşüblər. Həmçinin sənətkarla birgə işlədikləri dövrlərdən, onun iş prinsiplərindən, tələbkarlığından, işə məsuliyyətli yanaşmasından və Azərbaycan kinosuna verdiyi dəyərli töhfələrdən danışıblar. Bildirilib ki, dünya kinematoqrafiyasının nailiyyətlərindən və qabaqcıl təcrübəsindən daim bəhrələnən Eldar Quliyev Azərbaycanın kino salnaməsinə yeni səhifələr yazıb. Sənətkarın ideya dərinliyi ilə seçilən, ictimai-siyasi hadisələr fonunda insan mənəviyyatının təhlilini xüsusi diqqətdə saxlayan və xeyirxahlıq, məsuliyyət, humanizm aşılayan zəngin yaradıcılığı mədəniyyətimizin qızıl fondunda layiqli yer tutur. Eldar Quliyevin “Bir cənub şəhərində”, “Sevinc buxtası”, “Babək” və “Nizami” kimi parlaq ekran əsərləri, eləcə də çox sayda digər bədii və sənədli filmləri Azərbaycan kinematoqrafiyasının nailiyyətləridir.

**Görkəmli şəxsiyyətlərin Eldar Quliyev haqqında söylədikləri**

Məzmun rəngarəngliyi və mövzu aktuallığı, fəal vətəndaşlıq mövqeyi və müasirlik duyğusu, obrazların incə psixologizmi və hadisələrin həyatiliyi Eldar Quliyev sənətinin özünəməxsus cəhətlərini təşkil edir. Yaradıcılıq palitrası rəngarəngliyi ilə səciyyələnən sənətkar tamaşaçını ayrı-ayrı dövrlərin müasirinə çevirməyi bacarırdı. Onun xalqımızın keçmişinə ehtiram ifadə edən tarixi filmlərinin milli-mənəvi dəyərlərimizin təbliğində və gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyəsində əhəmiyyətli rolu vardır.

Böyük rejissorluq məharəti Eldar Quliyevə ölkəmizin hüdudlarından kənarda da geniş şöhrət gətirmişdir. Onun quruluş verdiyi, həmçinin ssenari müəllifi olduğu filmlər beynəlxalq kinofestivallarda Azərbaycan mədəniyyətini uğurla təmsil etmiş, sənətşünaslar və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. Eldar Quliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, rejissorların bir neçə nəslinin yetişdirilməsi işində qüvvəsini, bilik və bacarığını əsirgəməmişdir. Onun sənət yolu gənc kinematoqrafçılar üçün bundan sonra da örnək olacaqdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Eldar Quliyev elə ilk filmlərindəncə diqqəti cəlb etdi, axtarışları ilə maraqlandırdı, öz yaradıcılığına qarşı inam yaratdı.

Anar
Xalq yazıçısı

“Eldar Quliyev Azərbaycan kinosunda xüsusi xidmətləri olan rejissordur. Onun filmləri göz qabağındadır: tamaşaçı məhəbbəti, tamaşaçı marağı hər şeyi izah edir”.

Rasim Balayev

Xalq artisti

“Eldar Quliyevi tez-tez yuxuda görürəm. O, nəinki mənim, hamının ürəyində iz qoyub. O, bizim üçün həm qardaş, həm dost, həm müəllim idi. Böyük xoşbəxtlik oldu ki, Eldar Quliyev 1978-ci ildə məni “Babək” filminə dəvət etdi. Belə bir tarixi filmi çəkmək asan deyildi”.

Akif Rüstəmov

Rejissor

Eldar müəllim komandasına qarşı çox diqqətli və qayğıkeş olmağa çalışırdı. Xüsusən qadınlara münasibətində qeyri-adi dərəcədə nəzakətli idi. Biz ona “Azərbaycan kinosunun Alen Delonu” deyirdik. O, rejissor olmasaydı, çox yaxşı aktyor olardı”.

Həmidə Ömərova

Xalq artisti

Məhz E.Quliyevin sayəsində film çəkməyə başladım: “Moskvada oxuyanda məndə film çəkmək istəyi yarandı. Bakıya qayıdanda artıq Eldar müəllim “Debüt”ü açmışdı. Mənim bədii film çəkmək üçün ssenarim vardı, amma çox zəif idi. Eldar müəllim mənə Sara Tağıyeva haqqında sənədli film çəkməyi təklif etdi. Bu filmlə Sara xanım həmişəlik tarixdə qalıb. O filmi mən çəksəm də, Eldar müəllimin təşəbbüsü idi. Bunu heç vaxt yaddan çıxarmıram. Çox alicənab bir insan idi. Onun yeri boş qalıb. Bugünkü kinoda gedən prosesləri onunla müzakirə etməyə çox ehtiyac var…”

Ayaz Salayev

Kinoşünas

“ Eldar Quliyev intellektual səviyyəli, milli ruhlu bir insan idi. Kinomuzun həmişə belə ziyalılara ehtiyacı olub. Məhz belə rejissorlar kinomuzun incilərini yaradıblar. E.Quliyevlə çəkiliş meydançasında olmaq böyük bir bayram idi: Onunla işləyəndə evə getmək yada düşmürdü. Çəkiliş qrupunu elə səfərbər edirdi ki, kinodan başqa hər şeyi unudurdun. Təəssüf ki, bu gün kinomuzda Eldar Quliyev, Rasim Ocaqov, Həsən Seyidbəyli, Əlisəttar Atakişiyev kimi rejissorlar yoxdur!”

Əbdül Mahmudov

Kinorejissor, aktyor

"Atam kinonun böyük fanatı idi. O kinonun xalqa çatdırılması lazım olan sənət olduğuna inanırdı və bunun üçün hər şeyi edirdi. O istəyirdi ki, insanlar kinoya baxanda həm ləzzət alsınlar, həm də öyrənsinlər. Xatırlayıram ki, bacım İradə xanımla "Nizami və "Gümüşgöl əfsanəsi" filminin çəkilişlərində olmuşuq. Çəkiliş meydançasında söz sahibi o idi.

Nərminə Quliyeva
Eldar Quliyevin qızı

"Mənim ona çox böyük hörmətim, izzətim var. Təsəvvür edin ki, biz 1966-cı ildən bir yerdə fəaliyyət göstərmişik. Eldar müəllimin 5 filmində çəkilmişəm. 1973-cü ildə "Bizim küçənin oğlanları" filminə çəkilirdim. Həmin filmin çəkilişləri bitəndən sonra Bakıya gəldim. 23 yaşım var idi və bir ay sonra əsgər gedəcəkdim. Əslində məni aparmırdılar. Özüm hərbi xidmətdə olmaq və böyük kişilik məktəbindən keçmək istəyirdim. Eldar müəllim məni dəhlizdə görüb hal-əhvalımı soruşdu. Dedim, bir aydan sonra əsgər gedəcəyəm. Bildirdi ki, bir ay vaxtım var və bu müddətdə onunla birgə Çexislovakiyaya gedib filmə çəkilə bilərəm. Bu, "Səmt küləyi" filmi idi. Mən razılaşdım. Orada baş qəhrəman Həsən Məmmədovun davamçısı obrazını oynayacaqdım. Dedim, necə məsləhət görürsünüzsə, elə olsun. Xarici pasportumun olub- olmamağı ilə maraqlandı. Bildirdim ki, var.

Eldarda olan səmimiyyət, mehribanlıq ömrünün axırına kimi qaldı. Ondan sonra bir neçə filmdə işlədik. Axrıncı dəfə 1979-cu ildə "Babək"in çəkilişlərində iştirak etdik. Tərxan obrazını oynayırdım, eyni zamanda, Eldarın assisenti idim, həm də kaskadyor kimi ata minə bilməyən insanlara kömək edirdim. Eldar o xüsusiyyətə çox böyük diqqət göstərən insan idi. Onun Azərbaycan kinosunda çox gözəl bir istiqaməti, yolu vardı. Bu da əlbəttə ki, birinci növbədə Eldarın insanlığından irəli gəlirdi. Allah onun atası Tofiq Quliyevə də rəhmət etsin. Kinomuza neçə-neçə gözəl musiqilər yazıb".

Ənvər Həsənov
Xalq artisti

Eldar savadlı rejissor idi. Dünya kinosunu bilirdi. Eldarın bütün xarici filmləri görmək imkanı var idi. Onun böyük kinoda ilk işi "Bir cənub şəhərində" filmi idi. Çox uğurlu alındı. O filmi əvvəlcə ekrana buraxmadılar. Bəzi məqamlarını tənqid etmişdilər. Ulu Öndər Heydər Əliyev baxıb dedi ki, normal filmdir. Ondan sonra icazə verdilər. Eldar həm bədii, həm də sənədli filmlərin müəllifi idi. O, həm də yaxşı müəllim idi. Tələbələr yetişdirirdi. Azərbaycan kinosu Eldar Quliyevin simasında böyük bir adamı itirdi. Bir təsəlli var ki, filmləri ilə həmişə yaşayacaq".

Rasim Balayev
Xalq artisti

Yaradıcılığında dünyagörüşünü, savad səviyyəsini, rejissorluq qabiliyyətini təsdiqləyən, filmlərindəki ibrətamiz mesajlarını anladıqda minnətdarlıq hissi ilə alqışlanan görkəmli kinorejissor Eldar Quliyevin quruluş verdiyi ekran əsərləri gənc kinematoqrafçılar üçün məktəb, kinoşünaslar üçün tədqiqat obyekti, kinosevərlər üçünsə həyatın inikasıdır. Düşündürməyi bacaran, qəlblərdə yer tutan sənətkarın əsl sənət uğuru da bada vermədiyi ömrü sənətdə, sənəti qəlblərdə yaşatmasıdır.
Eldar Quliyevin filmlərindəki hadisə bolluğu, dəqiqliyi tamaşaçının ekran qarşısında məmnuniyyətlə oturmasına, obrazların müasirinə çevrilməsinə imkan verir. Ekran personajlarının dialoqlarından, baxışlarından, ifadə tərzindən tərəf-müqabilinə stimul ötürməsi, rolun mizanının doğruluğu ekran kompozisiyasının tamlığına, inandırıcı olmasına zəmin yaradır.

Mirseyfəddin Kirmanşahlı
Rejissor

"Eldar Quliyev aktyordan həmişə yaratdığı rolu fərqli boyalarla zənginləşdirməyi, təbiiliklə yanaşı inandırıcı təqdim etməyi tələb edir. Filmin qəhrəmanları da doğru təlimata əsasən hadisələri kamera qarşısında bilavasitə yaşayır.

Elşən Rüstəmov
Əməkdar artist

"O, teatra tez-tez gəlir, tamaşalara baxır, aktyorlara tövsiyələrini verirdi. Mən çəkinmədən, sərbəst şəkildə ona yaxınlaşır, suallar verir, o da ətraflı şəkildə suallarımı cavablandırırdı. Uzun müddət ona, sənətinə pərəstiş etmişəm, filmlərində çəkilməyi arzulamışam.

Şövqi Hüseynov
Əməkdar artist

Görkəmli kinorejissor Eldar Quliyevin anadan olmasının 85 illiyi münasibətilə keçiriləcək tədbirlərdən biri də müzakirədir. Bu gün biz rejissorun çəkdiyi filmlərin müzakirəsini sizlərlə birlikdə keçirəcəyik.

Tədbiri təşkil edən kitabxanaçı bir çox tanınmış insanları, rejissor, kinoşünas, sənət adamlarını tədbirə dəvət edir.

İlk əvvəl rejissorun həyat və yaradıcılığı haqqında söz açılır.

Bildiyiniz kimi, E.Quliyev məhşur bəstəkar Tofiq Quliyevin ailəsində dünyaya göz açmışdı. Bəlkə də incəsənətə olan marağı da bundan qaynaqlanırdı. Gənc yaşlarında ona kinostudiyanın rəhbəri vəzifəsi təklif edilsə də, razılaşmır. Hesab edir ki, kinostudiya incəsənət məkanıdır. Orada iclaslar, toplantılar keçirilməməlidir.

Eldar Quliyev 1967-ci ildən taleyini “Azərbaycanfilm” kinostudiyası ilə bağlayaraq ömrünün sonunadək burada çalışıb. O, 1987-ci ildən “Azərbaycanfilm” kinostudiyası nəzdində “Debüt” eksperimental-gənclik yaradıcılıq studiyasının bədii rəhbəri olub və 1999-cu ildə Azərbaycan Professional Kinorejissorlar Gildiyasının prezidenti seçilib. Böyük rejissorluq məharəti Eldar Quliyevə ölkəmizin hüdudlarından kənarda da geniş şöhrət gətirib. Onun quruluş verdiyi, həmçinin





ssenari müəllifi olduğu filmlər beynəlxalq kinofestivallarda Azərbaycan mədəniyyətini uğurla təmsil edib, sənətşünaslar və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Eldar Quliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, rejissorların bir neçə nəslinin yetişdirilməsi işində qüvvəsini, bilik və bacarığını əsirgəməyib. Onun sənət yolu gənc kinematoqrafçılar üçün bundan sonra da örnək olacaqdır. Rejissorun 1979-cu ildə çəkdiyi “Babək” filmi görkəmli sərkərdə və siyasi xadim Babəkə ithaf olunub. Babəkin həyat yolu və fəaliyyətini əks etdirən film, ən bahalı filmlər sırasında yer alıb. Eyni zamanda, tarixi janrda çəkilən film kimi istər öz dövrünün, istərsə də, hazırkı dövrün qəhrəmanlıq simvoluna çevrilib. Xatırladaq ki, 60-a yaxın ölkə tərəfindən alınan “Babək” filmi “Azərbaycanfilm”lə “Mosfilm”in birgə istehsalıdır. Eldar Quliyevin Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, “Əməkdar incəsənət xadimi” və “Xalq artisti” fəxri adlarını alıb, respublika Dövlət mükafatına və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülüb, müstəqil Azərbaycanın ali mükafatları olan “Şöhrət”, “Şərəf” və “İstiqlal” ordenləri ilə təltif edilib.Rejissoru bütün dövrlərin hadisələri, insan taleləri, həyatın inkişafına olan müdaxilə və münasibətləri düşündürüb. Buna görə də böyük həcmli, çox aktyorlu, geniş planlı filmlərin müəllifini, həmçinin (sosial mövzulu ekran əsərlərinə istinadən) hisslər rejissoru da adlandırmaq olar. Onu narahat edən prinsip və məsələlər (cəmiyyətin sosial durumu, insanların intellekt səviyyəsi, ictimai davranışı, məqsədi, məramı və s.) “Vacib müsahibə”, “Burulğan”, “Var olun, qızlar…”, “Ürək… ürək…” kimi filmlərdə əksini tapıb. Müsahibələrində ***“Federiko Fellininin filmlərinə vurulmuşdum. İstəyirdim ki, çəkdiyim filmlərin hər hansı bir epizodu onun filmlərinin epizoduna bənzəsin”*** deyən rejissor, məşhur “Bir cənub

şəhərində” filmi ilə iddialı yaradıcılığını isbatladı, məntiqli əsaslarla da davam etdirdi. Bir il rəfdə qalan film haqqında **“bilirdim ki, film nə vaxtsa nümayiş olunacaq”** deyən sənətkar sonrakı filmlərini də daxili intuisiyasına, məntiqinə əsasən əminliklə kinosevərlərə təqdim etdi.

E.Quliyev filmləri haqqında danışarkən bir məqamı xüsusilə qeyd edib ki, o, heç bir filmində yalan danışmayıb: *“Filmlərimdə özümdən danışmışam. O filmlərdə mənim fikirlərim, mənim arzularımdır. Məni tanımaq istəyən adam çəkdiyim filmlərə baxsın. Bəyənmədiyim, ruhuma, estetikama uyğun olmayan filmləri qəbul etməmişəm, imza atmamışam. Rejissor bütün ömrü boyu bir film çəkir. Rejissorun filmindəki fikirlər cəmiyyətin düşüncəsi ilə üst-üstə düşməlidir”.*



Eldar Quliyevin quruluş verdiyi ekran əsərləri gənc kinematoqrafçılar üçün məktəb, kinoşünaslar üçün tədqiqat obyekti, kinosevərlər üçünsə həyatın inikasıdır. Odur ki, onun ekranlaşdırdığı sənət əsərləri öz müəllifini daim yaşadacaq.

1987-ci ildə “Təxribat” filmini çəkən rejissor uzun müddət filmdən uzaq qalır. O, deyirdi ki, həmin illər kinomatoqrafçılar üçün çətin günlər idi. Daha sonra gənclər üçün “Debüt” adlı studiya-laboratoriya yaradır. Həmin dövrdə bu studiyanın yeni rejissorlar yaradacağını düşünən E.Quliyev, sonradan məqsədinə çatmadığını da etiraf edir.

Həyatının böyük bir hissəsini kino çəkilişlərinə həsr edən rejissorun yaradıcılığında çəkdiyi, amma bəyənmədiyi filmlər də olur.

Bütün filmlərində sevgi mövzusuna toxunan rejissor müsahibələrində deyir ki, sevgi həyatdır. ***“Sevgisiz yaşaya bilən insan varsa, mən ona həsəd apararam”.*** Bəli, ömrünün son illərində də çəkdiyi filmlərindən sevə-sevə danışırdı rejissor.

Onlarla ssenarilər qələmə alan E.Quliyev, yaratdığı obrazlarda özünü görürdü. Bunu heç zaman dilə gətirmir, tamaşaçının ixtiyarına buraxırdı.

Rasim Ocaqov, Müslüm Maqomayev, Həsən Turabov və s. digər şəxslərlə yaxın dostluğu olan E.Quliyev ancaq onu başa düşən şəxslərlə dostluq edirdi. Bəli, xalq artisti, kinorejissor Eldar Quliyev, yaradıcılığı boyu onlarla filmə imza atır. "İstiqlal", "Şərəf","Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, "Qızıl çinar" beynəlxalq mükafatı və s. orden və mükafatlarla təltif edilir.

Eldar Quliyev unudulmaz bir insan, gözəl rejissor idi. İllər keçəcək, nəsillər dəyişəcək. Amma “Babək”, “Bir cənub şəhərində”, “Bəyin oğurlanması”, “Güllələnmə təxirə salınır” və s. filmlərə baxan hər kəs onu bir daha yad edib, ruhuna rəhmət oxuyacaq...

Doğum günündə rejissor infarkt keçirir. Bir müddət müalicə aldıqdan sonra aprel ayının 16-da dünyasını dəyişir. Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli

kinorejissor Eldar Quliyevin anadan olmasının 85 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Bədii hissəsi çıxış və məruzələrlə başlayan tədbirin ikinci hissəsi rejissorun çəkdiyi filmlərdən fraqmentlərlə davam edir. **"Eldar Quliyev-85"** adlı tədbirin ssenarisini sizlər üçün təqdim edirik.

Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Rejissorun portreti və söylədiyi sitat səhnədən asılır.
" Məni tanımaq istəyən hər kəs filmlərimə baxsın".

Eldar Quliyev

Aparıcılar səhnəyə daxil olur.



**I Aparıcı:** Eldar Quliyev 1941-ci il yanvarın 18-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1958-1959-cu illərdə "Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi işləmiş, 1960-1966-cı illərdə Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda kino rejissoru ixtisası üzrə ali təhsil almışdır. Eldar Quliyev 1967-ci ildən taleyini "Azərbaycanfilm" kinostudiyası ilə bağlayaraq ömrünün sonunadək burada çalışmışdır. O, 1987-ci ildən "Azərbaycanfilm" kinostudiyası nəzdində "Debüt" eksperimental-gənclik yaradıcılıq studiyasının bədii rəhbəri olmuş, 1999-cu ildə Azərbaycan Professional Kinorejissorlar Gildiyasının prezidenti seçilmişdir. Dünya kinematoqrafiyasının nailiyyətlərindən və qabaqcıl təcrübəsindən daim bəhrələnən Eldar Quliyev Azərbaycanın kino salnaməsinə yeni səhifələr yazmışdır. Sənətkarın ideya dərinliyi ilə seçilən, ictimai-siyasi hadisələr fonunda insan mənəviyyatının təhlilini xüsusi diqqətdə saxlayan və xeyirxahlıq, məsuliyyət, humanizm aşılayan zəngin yaradıcılığı mədəniyyətimizin qızıl fondunda layiqli yer tutur. Eldar Quliyevin "Bir cənub şəhərində", "Sevinc buxtası", "Babək" və "Nizami" kimi parlaq ekran əsərləri, eləcə də çox sayda digər bədii və sənədli filmləri Azərbaycan kinematoqrafiyasının nailiyyətləridir. Məzmun rəngarəngliyi və mövzu aktuallığı, fəal vətəndaşlıq mövqeyi və müasirlik duyğusu, obrazların incə psixologizmi və hadisələrin həyatiliyi Eldar Quliyev sənətinin özünəməxsus cəhətlərini təşkil edir. Yaradıcılıq palitrası rəngarəngliyi ilə səciyyələnən sənətkar tamaşaçını ayrı-ayrı dövrlərin müasirinə çevirməyi bacarırdı. Onun xalqımızın keçmişinə ehtiram ifadə edən tarixi filmlərinin milli-mənəvi dəyərlərimizin təbliğində və gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyəsində əhəmiyyətli rolu vardır.

**II Aparıcı:** Eldar Quliyevin yaradıcılığına nəzər salanda görürsən ki, onun ekran əsərlərinin hamısı insan haqqında, öz qəhrəmanlarından birinin - dahi Nizaminin dediyi kimi, dünya qədər nəhayətsiz olan insanın müdafiəsi barədədir. Onun istedadı, sənətkarlığı məhz insan naminə mübarizəyə yönəlmişdir. Bu baxımdan Natiq Rəsulzadə ilə birgə yazdığı ssenari əsasında çəkilmiş "Dünya gözəl dünyadır..." filmini xatırlamaq yerinə düşər. Ekrandakı kadrlar doğma Bakının

bənzərsiz mənzərələrini əks etdirəndə, kükrəyib coşan Xəzərin dalğaları sahillərə çırpıldıqda, Bakı sakinlərinin çöhrələrində xeyirxah təbəssüm nur saçanda dünya həqiqətən çox gözəl təsir bağışlayır. Lakin qəflətən tamaşaçı ilk baxışda normal adamların vəziyyətlə əlaqədar müvəqqəti olaraq evə qayıtmış ruhi xəstələrə qarşı qəddarlıqlarının, onlara əzab-əziyyət vermələrinin, məsxərəyə qoymalarının şahidi olur. “İlk baxışda” sözlərini onu görə deyirəm ki, normal insan təbiətinin mahiyyətini xeyirxahlıq, yaxınlarına sevgi hissləri təşkil edir. Məgər Azərbaycan xalqı üçün məhz bu keyfiyyətlər səciyyəvi deyilmi?! Lakin gerçək həyatımızda nələrisə itirmişik, mənəviyyat meyarları müəyyən dərəcədə aradan qalxmış, əxlaqi dəyərlər haqqında təsəvvürlər heçə enmişdir. Eldar Quliyevin bu filmi belə qüssəli fikirlər oyadır. Ancaq bütün film boyunca qüssə ilə yanaşı, ümid də özünü göstərir: Yox, hələ hər şey itirilməmişdir. Filmin əsas qəhrəmanlarından birinin insanları daha xeyirxah olmağa, bir-birini sevməyə çağıran müraciətini dinləyəndə buna bir daha inanırsan. Rejissorun daha bir ekran əsəri - 2005-ci ildə çəkilmiş “Girov” filmi də Natiq Rəsulzadə ilə əməkdaşlığın məhsuludur. Bu əsər Karlovı Varı, Kəlküttə, Göteborq və başqa nüfuzlu beynəlxalq kinofestivallarda nümayiş etdirilmişdir. Filmin əsasını real hadisə təşkil edir: ermənilər sərhədyanı kəndlərin birində bir azərbaycanlı çobanı oğurlamış, bizimkilər də bunun cavabında bir ermənini girov götürmüşdülər. Filmin süjetinə əsasən, bütün sonrakı hadisələr yaradıcı heyətin əxlaqi mövqeyini açıqlayır. Onlar baş vermiş hadisəni öz təfəkkür süzgəcindən keçirərək qiymətləndirirlər. Lakin öz fikirlərini tamaşaçılara zorla qəbul etdirməyə çalışmır, bu qətiyyətsizliyin zəiflik, qatillərə və təcavüzkarlara münasibətdə rəhmdillik, yoxsa son dərəcə yüksək hisslərin təzahürü kimi qiymətləndirmək imkanını tamaşaçılara həvalə edirlər. Bir sözlə, bu filmdə qarşıya qoyulan sual belədir: insanın seçim hüququ varmı? Ustad sənətkarın yaradıcılığında sənədli filmlər xüsus yer tutur. O, çəkdiyi sənədli lentləri onu narahat edən hadisələrə, qəlbində xüsusi yer tutan şəxsiyyətlərə həsr etmişdir. Hadisələrdən söz düşəndə yəqin ki, E.Quliyevin faşizm üzərində böyük qələbənin 60 illiyinə həsr edilmiş xüsusi layihə üzrə Bakının və bakılıların bu qələbəyə verdiyi töhfələrdən bəhs edən “Unudulmuş qəhrəman” adlı publisistik filmi barədə danışmamaq olmaz. Şəxsiyyətlərə gəldikdə isə, əlbəttə, ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında, onun yaradıcı ziyalılara, gənclərə münasibətindən bəhs edən filmləri yada salmalıyıq. Bu filmlərin hər birində ulu öndərə dərin hörmət, minnətdarlıq hissləri özünü göstərir. Tamaşaçı hiss edir ki, bu filmlər həvəslə, böyük məhəbbət hissi ilə çəkilmişdir.

**II Aparıcı:** Eldar Quliyevin yeniyetmə yaşlarında heç ağlına da gətirməzdi ki, həyatını kino ilə bağlayacaqdır. Məktəbdə fizika fənni ilə çox maraqlanır, Moskva Fizika-Texnika İnstitutuna qəbul olmağa hazırlaşırdı. Lakin qəflətən bütün planları dəyişdi: O vaxt kinoteatrlarda Mixail Kalatozovun sensasiyaya çevrilmiş “Durnalar uçur” filmi nümayiş etdirilirdi. Eldar bu filmə dəfələrlə baxmış, qəti qərara gəlmişdi ki, “Rejissor olacağam, kino çəkəcəyəm!”, bu qərarını evlərində bildirəndə hamını mat qoysa da, heç kəs onu fikrindən döndərməyə çalışmadı. Orta məktəbi qızıl medalla bitirəndən sonra iki il işləməli oldu, həmin illərdə əmək stajı olmadan instituta qəbul etmirdilər. Kinostudiyada rejissor köməkçisi vəzifəsində işləməyə

başladı. Yalnız bundan sonra Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna qəbul oldu. Əvvəlcə sənədli filmlər ustası Roman Karmenin sinfində oxuyurdu. Bədii filmlər emalatxanası yaradılanda isə Karmenin məsləhəti ilə Eldar oraya getdi.Təhsil illərində Eldar Quliyev o dövrün qaydalarına uyğun olaraq, özünün yazdığı ssenarilər əsasında kurs işləri çəkirdi. Ssenarilərin əsası kimi çox vaxt Qərb ədəbiyyatı nümunələri, məsələn, Jan Anuy, Henrix Böll, O. Henri kimi sənətkarların əsərlərini seçirdi. Diplom işini isə Azərbaycan yazıçısı Salam Qədirzadənin bir hekayəsi əsasında çəkmişdi. Diplom işini əla qiymətlə müdafiə edəndən sonra doğma Bakıya qayıtdı. Lakin gənc kinematoqrafçının debütü sənədli kinoda oldu. O, Yusif Səmədoğlunun ssenarisi əsasında Səməd Vurğunun 60 illiyinə həsr edilmiş sənədli filmi Yalçın Əfəndiyevlə birgə çəkmişdi. Filmin musiqisini isə Emin Sabitoğlu yazmışdı. Beləliklə, bir növ üçqat debüt alınmışdı - ilk rejissor işi, ilk ssenari və bəstəkarın kinoda ilk işi. Ancaq Eldar Quliyev Azərbaycan və sovet kinematoqrafiyasına o dövrdə böyük hay-küyə səbəb olmuş “Bir cənub şəhərində” adlı tammetrajlı bədii filmin quruluşçu rejissoru kimi daxil oldu. Filmin doğurduğu əks-səda birmənalı deyildi. Onu tərifləyənlər də vardı, pisləyənlər də. Onun ekranlara çıxmasını da xeyli gözləmək lazım gəldi. Senzorlar həmin filmi bir ildən artıq rəflərdə saxlamış, yalnız 1969-cu ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gələndən sonra bu məsələ öz müsbət həllin tapdı. Bundan ruhlanan gənc kinorejissor böyük həvəslə yeni filmlər çəkməyə qərar verdi.Yaradıcılıqla məşğul olduğu yarım əsrə yaxın bir müddətdə Eldar Quliyev 20-yə yaxın bədii və çoxsaylı sənədli filmlər çəkib. Həmin filmlərin ssenarilərini də istedadlı gənc azərbaycanlı müəlliflər yazıb. Eldar Quliyev 1979-cu ildə “Babək” filmini çəkir və bu film professionallıq səviyyəsinə, kütləvi və batal səhnələrin miqyasına görə heç də xaricdə istehsal olunan bu tipli filmlərdən geri qalmırdı. Həmin illərdə "Babək" filmi 52 ölkə tərəfindən satın alınıb. Bunlarla yanaşı, "Ən vacib müsahibə", "Var olun, qızlar…", "Ürək… Ürək…", "Nizami", "Nə gözəldir bu dünya…", "Girov", "İstanbul reysi", "Dərvişin qeydləri" və s. filmlərə quruluş verib. Həmçinin bir neçə filmin ssenari müəllifi olub. Çəkdiyi filmlərin bir neçəsi kinofestivallarda mükafatlara layiq görülüb. "Debüt" studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kino kafedrasının professoru olub. E.Quliyev 1987-ci ildən "Debüt" Eksperimental Gənclik yaradıcılıq studiyasının rəhbəri kimi fəaliyyət göstərib. Azərbaycan Professional Kinorejissorlar Gildiyasının ən fəal yaradıcılarından olan E.Quliyev Gildiya yaradılan gündən indiyədək qurumun prezidenti idi. Böyük rejissorluq məharəti Eldar Quliyevə ölkəmizin hüdudlarından kənarda da geniş şöhrət gətirmişdir. Onun quruluş verdiyi, həmçinin ssenari müəllifi olduğu filmlər beynəlxalq kinofestivallarda Azərbaycan mədəniyyətini uğurla təmsil etmiş, sənətşünaslar və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. Eldar Quliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, rejissorların bir neçə nəslinin yetişdirilməsi işində qüvvəsini, bilik və bacarığını əsirgəməmişdir. Onun sənət yolu gənc kinematoqrafçılar üçün bundan sonra da örnək olacaqdır. Eldar Quliyev unudulmaz bir insan, gözəl rejissor idi. İllər keçəcək, nəsillər dəyişəcək. Amma “Babək”, “Bir cənub şəhərində”, “Bəyin oğurlanması”, “Güllələnmə təxirə salınır”

və s. filmlərə baxan hər kəs onu bir daha yad edib, ruhuna rəhmət oxuyacaq... Yaradıcılığında dünyagörüşünü, savad səviyyəsini, rejissorluq qabiliyyətini təsdiqləyən, filmlərindəki ibrətamiz mesajlarını anladıqda minnətdarlıq hissi ilə alqışlanan görkəmli kinorejissor Eldar Quliyevin quruluş verdiyi ekran əsərləri gənc kinematoqrafçılar üçün məktəb, kinoşünaslar üçün tədqiqat obyekti, kinosevərlər üçünsə həyatın inikasıdır. Düşündürməyi bacaran, qəlblərdə yer tutan sənətkarın əsl sənət uğuru da bada vermədiyi ömrü sənətdə, sənəti qəlblərdə yaşatmasıdır. Bəli, vəfatından illər keçməsinə baxmayaraq kinorejissor yaratdığı ekran əsərləri ilə bütün zamanlarda mənsub olduğu xalqın qəlbində daim qalacaqdır.

Təltif və mükafatları

"Azərbaycan SSR xalq artisti" fəxri adı — 1 dekabr 1982
"Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı — 23 dekabr 1976
Azərbaycan SSR Dövlət mükafatı — 1978 ("Sevinc buxtası" bədii filminə görə)
"İstiqlal" ordeni — 23 yanvar 2021
"Şərəf" ordeni — 14 yanvar 2011
"Şöhrət" ordeni — 17 yanvar 2001
"Qırmızı əmək bayrağı" ordeni
Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu — 14 yanvar 2016
"Qızıl çinar" beynəlxalq mükafatı — 10 may 2018
Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının "Milli kino" mükafatı — 14 yanvar 2016

Filmoqrafiya

Rejissoru olduğu filmlər

Səməd Vurğun (film, 1966)
Biri vardı, biri yoxdu... (film, 1967)
Bir cənub şəhərində (film, 1969)
Abşeron ritmləri (film, 1970) (tammetrajlı musiqili film)
Ən vacib müsahibə (film, 1971)
Var olun, qızlar... (film, 1972)
Səmt küləyi (film, 1973)
Ürək... Ürək... (film, 1976)
Sevinc buxtası (film, 1977)
Babək (film, 1979)
Yalançını evinəcən qovarlar (film, 1981)
Nizami (film, 1982)
Gümüşgöl əfsanəsi (film, 1984)
Burulğan (film, 1986)
Təxribat (film, 1989)
Dostuma məktub (film, 1992)
Elegiya (film, 1997)
Nə gözəldir bu dünya... (film, 1999)
Girov (film, 2005)
Unudulmuş qəhrəman (film, 2005)
Heydər Əliyev. Dünyaya pəncərə (film, 2006)

İstanbul reysi (film, 2010)
Dərvişin qeydləri (film, 2013)
Bədii rəhbəri olduğu filmlər
Qızıl uçurum (film, 1980)
Bəyin oğurlanması (film, 1985)
Ata (film, 1988)
Dəvətnamə (film, 1989)
Bəxtəvər (film, 1990)
Güzgü (film, 1990)(II)
"Yapon" və yaponiyalı (film, 1990)
Lal (film, 1992)
Təbəssüm (film, 1992)
Vahimə (film, 1998)
Əsirin qayıtması (film, 2002)
Odla qol-boyun (film, 2002)
Ümid (film, 2002)
Güllələnmə təxirə salınır!... (film, 2002)
Alo, mənəm (bədii rəhbər)
Vəsiyyət (bədii rəhbər)
Yol ayrıcında qalmış taksi (2017)
İştirak etdiyi filmlər
Cənub buxtası (film, 1977)
Azərbaycan kinosu-80 (film, 1996)
Azərbaycan naminə (film, 2005)
Yaşadım ki, yaşadam (film, 2008)
Yaşadan, yaşayan Yaşar (film, 2012)
Ssenari müəllifi olduğu filmlər
Biri vardı, biri yoxdu... (film, 1967)
Sevinc buxtası (film, 1977)
Yalançını evinəcən qovarlar (film, 1981)
Nizami (film, 1982)
Gümüşgöl əfsanəsi (film, 1984)
Burulğan (film, 1986)
Çat (film, 1988)
Dünən, bu gün və... (film, 1989)
Təxribat (film, 1989)
Bizim Nəsibə xanım... (film, 1991)
Özüm və zaman haqqında (film, 1991)
Nə gözəldir bu dünya... (film, 1999)
Şəhidlik zirvəsi (film, 2001)
Girov (film, 2005)
Unudulmuş qəhrəman (film, 2005)
Monoloq (film, 2007)
İstanbul reysi (film, 2010)

Dərvişin qeydləri (film, 2013)
Çəkildiyi filmlər
Dantenin yubileyi (film, 1978)
Mənim ağ şəhərim (film, 1993)
Haqqında çəkilən film
Hər filmimdə özümü görürəm. Eldar Quliyev (film)
Rejissor köməkçisi olduğu film
Əsl dost (film, 1959)
İdeya müəllifi olduğu film
Girov (film, 2005)
Çəkilişinə köməklik etdiyi film
Kədərimiz... Vüqarımız...
Diplom rəhbəri olduğu film
Kəsişməyən yollar (film, 2002)
Tövsiyə edilən ədəbiyyat:

Əbdülrəhmanlı, Nəriman Hacı oğlu. Azərbaycan kino sənəti tarixi : (4 cilddə) : [monoqrafiya] /N. Əbdülrəhmanlı ; [layihə. rəhb. R. İbrahimbəyov] ; red. Z. İsmayılova ; nəşrinə məsul Əli İsa Cabbarov ; vizual material. üzrə məsləhətçi N. Abbas ; foto təminatı: P. Quliyev, N. Ələkbərov, R. Qasımov ; qapaq dizaynı R. Həsən ; [Azərbaycan Kinomatoqrafçılar İttifaqı]. C. 3. Bölmə 4 Azərbaycan kinosu: inkişaf ənənələri və janr müxtəlifliyi (1961-1991-ci illər). - Bakı: [Qanun], 2020. - 629 s.
Əbdülrəhmanlı, Nəriman Hacı oğlu. Azərbaycan kino sənəti tarixi : (4 cilddə) : [monoqrafiya] /N. Əbdülrəhmanlı ; [layihə. rəhb. R. İbrahimbəyov] ; red. Z. İsmayılova ; nəşrinə məsul Əli İsa Cabbarov ; vizual material. üzrə məsləhətçi N. Abbas ; foto təminatı: P. Quliyev, N. Ələkbərov, R. Qasımov ; qapaq dizaynı R. Həsən ; [Azərbaycan Kinomatoqrafçılar İttifaqı]. C. 4. Bölmə 5 Azərbaycan kinosu inkişaf müstəqillik dövründə (1991-2018-ci illər). - Bakı: Qanun, 2020. - 719 s.
Kazımzadə, Aydın Ələsgər oğlu. Azərbaycan kinosu: 1898-2002: [2 cilddə] /A. Kazımzadə; Azərb. Resp. Mədəniyyət Nazirliyi; elmi red. İ. Rəhimli, A. Salayev. I cild. - Bakı: Nağıl evi, 2003. - 239 s.
Kazımzadə, Aydın Ələsgər oğlu. Azərbaycan kinosu: 1898-2002: [2 cilddə] /A. Kazımzadə; Azərb. Resp. Mədəniyyət Nazirliyi; elmi red. İ. Rəhimli, A. Salayev. II cild. - Bakı: Nağıl evi, 2003. - 372 s.
Sadıxov, Nazim. Azərbaycan kino rejissorları : Portretlər /N. Sadıqov ; red. S. İsmayılova ; rəyçi. F. Səfiyev. - Bakı: İşıq, 1988. - 157 s.

İnternetdə:


https://kulis.az/xeber/kino/rejissor-butun-omru-boyu-bir-film-cekir-eldar-quliyev-83-52143

https://www.preslib.az/az/historical/page/v5PcN4R

https://az.wikipedia.org/wiki/Eldar_Quliyev_(rejissor)

https://az.wikipedia.org/wiki/Eldar_Quliyev_(rejissor)

https://teleqraf.az/news/art/323653.html